

## İstedad

# "Qaliblər sırasında olduğumu eşidəndə hədsiz sevindim"

### Akademik Zərifə Əliyeva adına liseyin şagirdi Rusiyada keçirilən müsabiqənin diplomu ilə təltif olunub




**Niyazi RƏHİMOV**

"Şagirdimiz Ləman Əhmədova Rusiya Yazıçılar İttifaqının "İlin şairi" milli ədəbi mükafatı üzrə keçirilən müsabiqədə "Debüt" nominasiyası üzrə qaliblərdən olaraq diplomla təltif olunub". Bu sözləri Bakıdakı akademik Zərifə Əliyeva adına liseyin direktoru Mehriban Vəliyeva bildirib. Direktor qeyd edib ki, Ləman müsabiqəyə ilk mərhələdə 3, sonrakı mərhələdə isə 4 şeir olmaqla 7 şeir təqdim etmişdir. Sevindirici haldır ki, Ləman Əhmədovanın müsabiqəyə təqdim etdiyi şeirlərdən 6-sı Rusiya Yazıçılar İttifaqının çap etdiyi "Debüt" kitabında yer alıb. Nəzərə çatdırım ki, müsabiqədə 6 nominasiyadan biri olan "Debüt" yeni yaradıcılığa başlayan şairlər üçün təşkil olunub. Azərbaycan şagirdinin belə bir müsabiqədə qaliblər sırasında olması, şeirlərinin böyük oxucu kütləsi olan kitabda yer alması bizim üçün çox qürurvericidir.

### "Şeirlərim Rusiya Yazıçılar İttifaqının çap etdirdiyi "Debüt" kitabında yer alıb"

Ləman Əhmədova iştirakçısı olduğu müsabiqə haqqında fikirlərini bizimlə bölüşüb: "İki il bundan öncə məndə şeir yazmağa həvəs yarandı. Əvvəllər şeirləri özüm üçün yazırdım və bu vərdiş məndə bir hobbi idi. Bir gün yazdığım şeirlərdən birini rus dili və ədəbiyyat müəlimim Alla Hacıyeva oxudu. O, mənə şeirlərimi bəyəndiyini bildirdi və bir sıra tövsiyələr verdi. Müəllimimizin dediklərindən sonra məndə şeirə, ədəbiyyata qarşı daha böyük həvəs yarandı və artıq bu işlə çox ciddi məşğul olmağa başladım. Bir gün Rusiyada belə bir müsabiqə keçirildiyini eşitdim və şeirlərimi həmin müsabiqəyə göndərdim. Müsabiqəyə qatılmaqda məqsədim sadəcə özümü sınamaq idi. Lakin müsabiqənin qalibləri sırasında olduğumu eşidəndə hədsiz dərəcədə sevindim. Şeirlərim Rusiya Yazıçılar İttifaqının çap etdirdiyi "Debüt" kitabında yer alıb. Bu məni daha çox qürurlandırır. Bu qürur hissini sözlə ifadə etmək çox çətindir. Gələcəkdə şeirlərimi toplayıb kitab çap etdirmək fikrindəyəm. Başqa ixtisas üzrə mütəxəssis olmağı planlaşdırsam da şeir yazmağı da unutmayacağam. Düşünürəm ki, hər bir şagird belə müsabiqə və yarışlarda iştirak edərək özünü sınamalıdır".